GÜNÜN SİYASİ NƏBZİ





# Göylərə meydan oxuyanların yerdəki qisməti






**"Hörmətli sərnişinlər, təlimata uyğun hərəkət edin, hər şey yaxşı olacaq". Göylə əlləşib, yerdən kömək uman dəmir qanadlı quşun son çırpıntıları, ölümə meydan oxuması günümüzün reallığı oldu. O dəmir qəfəsdə son dəqiqələrini yaşayan insanların təsəllisi isə bir Azərbaycan qızının "hər şey yaxşı olacaq" kəlmələri idi.**

Sanki o gün Hökümə səmaya hökm etdi. Göylə yer arasındakı məsafədə həyatla ölüm, işıqla zülmət, ümidlə ümidsizlik mübarizə aparırdı. Yerdən ayağı üzülüb göylə əlləşən insanlar ölümün caynaqlarında bir tükdən asılı qalmışdılar. Bu qaçılmaz faciədə çıxış yolu yox idi. Xeyirli səhərdə yola çıxan insanların son dayanacağı ünvan ölüm oldu. Od düşdü neçə-neçə ailəyə. Neçə arzular yarım, neçə sevgilər nakam, neçə ümidlər göydən enib yerdə can verdi. Hər şeyin yaxşı olacağı ümidi ilə son ana kimi inamını itirməyib ölümün gözünə dik baxaraq mübarizə apardı Azərbaycan qadını. Səsində titrəyiş, həyəcan, narahatlıq və kövrəklik hiss olunsa da, təsəllini şərik qoşmuşdu. Çarəsiz qaldığı ən son anda belə vəzifə borcunu ləyaqətlə, vicdanla yerinə yetirdi. Bir Azərbaycan xanımı göylərə meydan oxuyur, cəmi 3-5 dəqiqədən sonra öləcəyini bildiyi halda onlarla insana ümid, inam hissi bağışladı. Qəzaya uğramış təyyarədə ümidsizlik içində çarpışan insanlara həyat dolu səslə inam toxumu səpərək əsl qəhrəmana çevrildi. Dəhşətli təyyarə qəzasında həlak olan Hökümə Əliyeva göyləri seçmişdi, göylərə də ucaldı.

1991-ci ildə Kəlbəcər rayonunda dünyaya gələn Hökümə Əliyeva 6-cı sinfə kimi ailəsi ilə birlikdə Rusiyada yaşayıb. Daha sonra Azərbaycana qayıdıb, orta məktəbi bitirdikdən sonra 612 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. Magistr və doktorantura dərəcəsində təhsilini davam etdirib. 2016-cı ildən AZAL-da əvvəlcə tərcüməçi, daha sonra stüardessa kimi işləyib. Ciddi xarakterə malik olan Hökümə işi barədə danışmağı sevməzmiş. 33 yaşlı Hökümə Əliyeva dörd il əvvəl ailə qurub və övladı olmayıb. Anası Kəmalə Alıyeva onun haqqında deyib: "Hökümə çox gülərüz idi. Əksər ölkələrdə olmuşdu. Hər zaman deyirdi ki, mənimlə fəxr edin. Bir dəfə səfərdən dönəndə dedi ki, az qala təyyarə qəza edəcəkdi… Bu dəfə qəza oldu, qızım xilas ola bilmədi". Bəli, faciəvi təyyarə qəzası nəticəsində peşəkar, yüksək səviyyəli təhsilə malik bir Azərbaycan gənci həyatını itirdi. Hökümənin timsalında bir daha bu xalqın, dövlətin yetişdirdiyi elmli-bilikli mütəxəssislərin şahidi olduq.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburq şəhərində keçirilən MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün yola düşmüşdü. Rusiya hava məkanında olarkən hadisə haqqında məlumat alan ölkə başçısı dərhal geri dönmək barədə tapşırıq verib. Bu, bir dövlət başçısının məsuliyyət hissi ilə yanaşı, xalqına, millətinə və dövlətçilik ənənələrinə sadiqliyi, sədaqətidir. Xoş gündə də, ən çətin məqamda da xalqı ilə birlikdə olan Prezident İlham Əliyev həmin gün bir daha sübut etdi ki, onun üçün insan faktoru, milli təəssüb bütün amillərdən ucadır. Hələ təyyarədə olarkən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verib.

Vətənə dönən Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda təcili müşavirə keçirib. Ölkə başçısı hadisə yerində fəaliyyət göstərən komissiyanın faciənin başvermə səbəbləri barədə ictimaiyyətə məlumat verilməsini tapşırıb: "Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmalıdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq".

Dünyada təyyarə qəzaları nəticəsində baş verən faciələrin sayı çoxdur. Bəzisində insan itkisi az, digərində daha çox olmuşdur. Əlbəttə ki, buna da səbəb ilk növbədə pilotların peşəkarlığıdır. Bakı-Qroznı təyyarəsini idarə edən hər iki pilot - İqor Kşnyakin və Kalyaninov Aleksandr, sözün əsl mənasında, peşəkarlıq göstəriblər. Hər iki pilot insan itkisinin çox olmaması üçün canları bahasına bütün vasitələrdən istifadə edərək son ana kimi mücadilə aparıblar. Təyyarənin ekipaj üzvlərinin peşəkarlığı özünü göstərdi. Qaydalara əməl olunması, mümkün variantlardan və ehtimallardan istifadə edilməsi məhz insan təlefatının yarıbayarı az olmasına səbəb oldu. Son anda dənizə düşəcəyi halda faciənin miqyasının daha böyük olacağını nəzərə alaraq, hava gəmisini boş sahəyə endirməyi daha məqsədəuyğun hesab edərək, təyyarəni yaşayış məntəqəsinə çırpılmaqdan xilas etdilər. Onların qəhrəmanlığını sağ qalan sərnişinlər də qeyd edir.

AZAL-ın sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dekabrın 26-sı ölkəmizdə matəm günü elan edildi.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**